Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

"Kitabi-Dədə Qorqud" və gürcü folkloru

İki xalq arasında hələ lap qədimdən epik əlaqələr yaranıb

Sovet hakimiyyəti illərində bir sıra ədəbiyyatşünas alimlərimizin Azərbaycan-gürcü ədəbi əlaqələrinin öyrənilməsi sahəsində geniş tədqiqat işləri aparmalarına baxmayaraq, bu xalqların folklor əlaqələrinin tədqiqi yeni elmi axtarışlar aparılmasını tələb edir.

"Duxa Qoca oğlu Dəli Domrulun boyu"nun süjeti bütün Zaqafqaziya xalqlarının şifahi ədəbiyyatına müəyyən dərəcədə təsir göstərmiş və müvafiq əfsanələr şəklində bu xalqlar arasında yayılmağa başlamışdır. Bu, "Menasvale" gürcü xalq folkloru nümunəsində özünü daha qabarıq şəkildə göstərir. Hər iki əsərdə qəhrəmanlar Əzraillə vuruşur, məğlub olur və öz canlarının əvəzinə başqa can verməyə məcbur olurlar. Ata və ana öz canlarını oğluna qıymadıqları halda, onların sevgililəri ərlərini xilas etmək naminə canlarından keçməyə hazır olduqlarını bildirirlər.

Hər iki əsər eyni bir sonluqla - ata-ananın məğlubiyyəti və sevgililərin qələbəsi ilə bitir. Əsərlər öz məzmunlarına görə, demək olar ki, eynidir. Burada "Dədə-Qorqud"un daha qədimliyini nəzərə alsaq, "Menasvale"nin ədəbi təsir nəticəsində yarandığına şübhə yeri qalmır. Həmin boydakı ölümlə həyatın mübarizəsi motivinə "Şaveti" adlanan gürcü xalq poeziyasında, daimi yaşayış mənbəyi axtaran qəhrəman motivinə isə xalq dastanı "Amiran Darecaniani"yə böyük təsir göstərmiş "Mzeçabuki" adlı gürcü nağılında təsadüf edirik.

"Dədə Qorqud"un ilk tədqiqatçılarından biri akademik V.Jirmunski yazırdı ki, "Amiran" (İmran) surəti hər şeydən əvvəl Qafqaz mənşəlidir. O, Qafqaz Prometeyi Amiraninin adını xatırladır... İlkin olaraq folklorşünas professor E.Virsaladze gürcü epik ovçuluq mahnılarını tədqiq edərkən mifik ovçu Betkillə "Amiraniani" dastanının qəhrəmanı Amiranini "Bəkil oğlu İmran boyu"ndakı İmran və Bəkil surətləri ilə müqayisə etmiş və bu yaxınlığı ozanların Gürcüstanla hələ lap qədimlərdən yaranmış epik əlaqəsinin nəticəsi kimi dəyərləndirmişdir.

Həmin dastanlarda bəzi ümumi motivlər aşkara çıxarmaq olar. Belə ki, "Basatın Təpəgözü öldürdüyü boy" ilə "Amiraniani" dastanının svani variantı arasında daha çox oxşarlıq vardır. Hər iki əsərdə Təpəgöz surəti zülmü təmsil edir. Yunan, ərəb və başqa xalqların əsatirlərindən fərqli olaraq, bu əsərlərdə hadisələr suda yox, quruda cərəyan edir. Həmin əsərlərdə qəhrəmanlar (Basat və Amirani) Təpəgözlə qarşılaşdıqdan sonra müxtəlif sınaqlardan çıxırlar. Doğrusu, sınaqlar bir-birindən fərqlidir. Nəhayət, həm Basat, həm də Amirani Təpəgözün qılıncını ələ keçirir və onun başını öz qılıncı ilə kəsirlər. Beləliklə, nəhəng adamyeyəni öldürməkdə hər iki qəhrəmanın məqsədi şər qüvvəni, zülmü Yer üzündən silib atmaqdır.

Bəzi gürcü nağıllarında "Amiraniani"dən fərqli olaraq Təpəgöz div yox, təkgözlü adamdır. Bəlli olduğu kimi, "Dədə Qorqud" dastanında da Təpəgöz div deyil, təkgöz, nəhəng bir insandır. "Oçi-Koçi" adlı meqrel nağılındakı təkgöz adam divin icra etdiyi bütün funksiyaları yerinə yetirir. Bu nağılın müsbət qəhrəmanı Sanartiya Basat kimi yenilməz qüvvəyə malikdir. Belə ki, Sanartiya qəhrəmanlıq göstərərək Təpəgözü öldürür və ölkəni bədbəxtlikdən xilas edir. Bu nağıl öz süjet xəttinə görə "Basatın Təpəgözü öldürdüyü boy"a daha çox yaxındır.

Qonşu xalqa olan dostcasına münasibəti dastanda bəzi gürcü sözlərinin işlədilməsindən də hiss etmək mümkündür. Məsələn, "aznavur" sözü gürcücə "əsilzadə", "feodal" mənasında işlədilir. "Aznavur" sözünə hətta qədim gürcü folklorunun bəzi nümunələrində də (gürcü satirik xalq poeziyasında, atalar sözlərində və s.) rast gəlinir.

Çox maraqlıdır ki, "Dədə Qorqud" dastanlarında müxtəlif dövrlər ərzində gürcü dilinə keçmiş bağ, dövlət, ocaq, tümən, şişlik, şalvar, xalça və sair kimi sözlərə- ağa, bəy, xatın titullarına, Ömər (Omari), Rüstəm (Rostomi), Fatma (Patima) kimi insan adlarına təsadüf edilir.

Dastanda Azərbaycan və gürcü xalqları arasında müştərək olan- övladı olmayanların nəzir-niyaz verməsi, oğlanın qıza nisbətən daha üstün tutulması, yuxuda gördükləri əlamətləri eyni ilə yozmaq və s. də var.

Dastanda təsadüf olunan "Aslan əyini yenə aslandır", "Qarı düşməndən dost olmaz", "At işlər, ər öyünər" kimi müdrik atalar sözlərinə ideya-məzmun etibarı ilə yaxın olan gürcü atalar sözləri vardır.

Bütün bunlar Azərbaycan və gürcü xalqlarının dünyagörüşündəki və yaradıcılığındakı yaxınlığın bədii ifadəsi kimi çox böyük əhəmiyyətə malikdir.

Almaz Borçalı (Əlizadə)